# Kazus

Samuel Lyisen (**bundan sonra: *ərizəçi***) Böyük Britaniya vətəndaşıdır və 23 yaşı var. O, 2012-ci ilin dekabr ayında rəsmi olaraq həqiqi hərbi xidmətə çağrılıb. Lakin, ərizəçi dini inanclarının hərbi xidmət keçməyə icazə vermədiyini, əvəzində alternativ hərbi xidmət keçməyə hazır olduğunu əsas gətirərək xidmət keçməkdən imtina edib və həbs olunmaması üçün yaşayış yerini tərk edib.

Böyük Britaniya qanunvericiliyinə görə hərbi xidmətdən boyun qaçırma cinayət məsuliyyəti yaratdığından və alternativ hərbi xidmət dövlət tərəfindən tanınmadığından məhkəmə ərizəçinin barəsində həbs qərarı verib. 2013-cü ilin fevral ayında ərizəçi hüquq mühafizə orqanları tərəfindən həbs olunub və 2013-cü ilin may ayında məhkəmə ərizəçini 2 il 6 ay azadlıqdan məhrum edib.

11 ay cəza çəkdikdən sonra ərizəçi şərti olaraq azadlığa buraxılıb və Konvensiyanın 9-cu maddəsinin pozuntusu iddiası ilə Avropa Məhkəməsinə müraciət edib.

**SUAL:**

Konvensiyanın 9-cu maddəsinin pozuntusu baş veribmi?

*Hazırladı: Sadiq Bağırov*
*Tural Hacıbəyli*